# Ölkəmizdə qeyri-neft sektoru yüksək templə inkişaf edir

**Son illərdə Azərbaycanda həyata keçirilən yeni islahatların əsas hədəfi iqtisadiyyatın şaxələndirilməsini və investisiya qoyuluşunu sürətləndirmək, qeyri-neft sektorunun yüksək inkişaf tempini təmin etmək və ixrac imkanlarını genişləndirməkdir. Son 15 ildə qeyri-neft sektorunun inkişafı onu göstərir ki, bu sahəyə qoyulan investisiyalar, sahibkarlara göstərilən dəstək artıq öz bəhrəsini verməkdədir. Aparılan islahatlar, struktur dəyişiklikləri və yeni təyinatlar ölkəmiz üçün yeni dövr başladı.**

Prezident İlham Əliyevin gömrük sistemində də apardığı islahatların nəticəsi olaraq beynəlxalq ticarətin asanlaşdırılması, müvafiq prosedurların sadələşdirilməsi, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, şəffaflığın və vətəndaş məmnuniyyətinin təmin olunması istiqamətində mühüm nailiyyətlər əldə olunub. İslahatlar çərçivəsində həm gömrük, həm də xarici ticarət iştirakçıları üçün vacib amillərdən biri də ölkəmizdə gömrük təmsilçiliyi institunun beynəlxalq standartlara uyğun şəkildə formalaşdırılması, təmsilçilərinin bilik və bacarıqlarının artırılmasıdır.

Gömrük təmsilçiliyi Azərbaycan Respublikası Gömrük Məcəlləsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 23 yanvar tarixli 17 nömrəli qərarı ilə təsdiq edilmiş "Gömrük Təmsilçiliyi, o cümlədən gömrük brokeri fəaliyyətini tənzimləyən Qaydalar"la təsdiq edilmişdir.

Respublikamızda gömrük təmsilçiliyi sahəsində fəaliyyət göstərən "My Broker" Məhdud Məsuliyyətli Cəmiyyəti 22 aprel 2016-cı il tarixdən etibarən gömrük brokeri qismində fəaliyyətdədir. "My Broker" ixtisaslaşmış gömrük təmsilçiliyi Azərbaycan Respublikası gömrük fəaliyyəti zonasında ilk dəfə beynəlxalq təcrübəsi əsasında yaradılmış, dünya standartlarına cavab verən müasir gömrük təmsilçisi olaraq 80 nəfərlik peşəkar işçi qüvvəsi ilə operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında 20-dən artıq xidmət növü ilə tam gömrük təmsilçilik xidmətləri kompleksini və beynəlxalq daşınmaların təşkilini həyata keçirir.

"My Broker" gömrük təmsilçiliyinin vətəndaşların və iş adamlarının gömrük rəsmiləşdirmə əməliyyatlarını asanlaşdırmaq məqsədi ilə Bakı və Sumqayıt şəhərləri "ASAN xidmət" mərkəzlərində müvafiq xidmət pəncərələrini yaradaraq vətəndaşlara və iş adamlarına öz xidmətlərini göstərməkdədir.

Kompleks xidmətlər göstərmək məqsədi ilə Hava Nəqliyyatında Baş Gömrük İdarəsi, Bakı Baş Gömrük İdarəsi və Enerji resursları və Dəniz nəqliyyatında Baş Gömrük İdarəsi üzrə müvafiq şöbələr yaradaraq fəaliyyət göstərməkdəyik. Yaxın gələcəkdə də digər gömrük idarələri və terminallarda müvafiq xidmət şöbələrimizi yaradacağıq. Şirkətin əsas məqsədi müştərilərə ölkəmizdə gömrük işinin səmərəli şəkildə həyata keçirilməsində, gömrük əməliyyatlarının sürətləndirilməsində, maariflendirilməsində köməklik etməkdir. "My Broker" gömrük təmsilçiliyi apardığı uğurlu kadr siyasəti nəticəsində beynəlxalq daşımaların rəsmiləşdirilməsi sahəsində zəngin təcrübəyə malik əməkdaşları öz sıralarına cəlb etməyə nail olmuşdur və bu öz növbəsində sözügedən sahədə müştərilərimizə tam xidmətlər paketini təklif etməyə zəmin yaratmışdır. Şirkətimiz nəticə olaraq Rusiya, Türkiyə, Almaniyaya öz gömrük xidmətlərini



göstərməklə beynəlxalq satışından ölkəyə valyuta gətirməkdədir.

Sahibkarlığımızın inkişafı üzrə də "My Broker" gömrük təmsilçiliyi yalnız gömrük rejimlərinin tətbiqi deyil, həm də gömrük rəsmiləşdirmə əməliyyatının düzgün həyata keçirilməsi üçün məsləhət xidməti, təlim, tədris, maarifləndirmə istiqamətində də işlərini qurub ki, bu da sahibkarlar ilə bilik və təcrübə mübadiləsini həyata keçirməyimizə imkan yaratmışdır. Gömrük təmsilçiliyi inistutunun təkmilləşdirilməsi ilə əlaqədar Dövlət Gömrük Komitəsi tərəfindən gömrük təmsilçilik mütəxəssislərinin attestasiyası keçirildi, "My Broker" gömrük təmsilçiliyinin 21 əməkdaşı bu attestasiyadan yüksək nəticələr əldə edərək ixtisas attestatları almışlar.

Gömrük işinin təşkili istiqamətində də həyata keçirilən islahatlar ölkəmizin beynəlxalq ticarətdə rolunu artırmaqla yanaşı, qeyri-neft sektorunun inkişafı, sahibkarlıq mühitinin yaxşılaşdırılması, idxal-ixrac əməliyyatlarının sürətli və şəffaf şəkildə həyata keçirilməsində günümüzdə mühüm rol oynamaqdadır. Bildirimək istərdim ki, aparılan islahatlar, təkmilləşmələr, vətəndaşlar və sahibkarlar qarşısında xidməti öhdəliyimizi keyfiyyətli, operativ yerinə yetirməyimizdə mühüm rol oynayır.

Beynəlxalq ticarətin asanlaşdırılmasında gömrük təmsilçiliyinin üstünlüyü məlumatların idarə edilməsində, əlaqələrin qurulmasında, sahibkar-gömrük orqanlarında katalizator rolu oynamaqla mürəkkəb gömrük əməliyyatlarını həyata keçirməsində, gömrük sistemində məmur-vətəndaş münasibətlərinin tənzimlənməsində, o cümlədən beynəlxalq ticarətdə dövlətin maraqlarını təmsil edən vasitəçilər funksiyasını həyata keçirməsindədir.

Gömrük təmsilçilikləri ticarətin təchizat zəncirində mühüm rol oynadığı və sahibkarlığın inkişaf etdirilməsində yüksək əhəmiyyət kəsb etdiyi kimi, xarici ticarət əməliyyatlarında toplanan vergilərin düzgün yığılmasını təmin etmək üçün dövlət qarşısında öhdəliklərini uğurla yerinə yetirirlər. Vergilərin düzgün hesablanması, vaxtında ödənilməsi və vergidən yayınma halının qarşısının alınması iqtisadi artıma birbaşa dəstəkdir.

Gömrük təmsilçiliklərinin malik olduğu qanunvericilik bazası, beynəlxalq bazarlar haqqında geniş məlumat, hər bir mal və nəqliyyat vasitəsinə uyğun tələb olunacaq zəruri sənədlər və maliyyə bilgiləri ilə ixracat əməliyyatlarını daha da asanlaşdırır və ölkənin ixrac potensialını artırır. Dövlətin iqtisadi maraqlarını qoruyaraq vergi məbləğinin və büdcə yığımlarının düzgün müəyyən olunmasında və gömrük yığımlarının toplanmasında gömrük təmsilçiliyi dövlətin əsas köməkçilərindən hesab olunur.

Ölkəmizdə formalaşmaqda olan gömrük təmsilçilik sektoru ilə sahibkarlar arasında, görünür, bir müddət vaxt lazım olacaq ki, qarşılıqlı güvən yaransın. Sahibkarlığımızın inkişafında rolunun ola biləcəyini qəbul edərək, işlərimizi iş adamlarına, sahibkara dəstək yönündə qurmağı, fəaliyyətimiz ilə sahibkarlığımızın inkişafına şərait yaratmalı, Azərbaycan istehsalı yerli məhsullarımızın xarici bazarlara çıxarılması üçün ixrac gömrük əməliyyatları üzrə də sürətli dəhliz açmalıyıq.

**(davamı 3-cü səhifədə)**

**Respublika.-2019.- 9 noyabr.- S. 1;3**

# Ölkəmizdə qeyri-neft sektoru yüksək templə inkişaf edir

(əvvəli 1-ci səhifədə)

Sektorun inkişaf mərhələsində olduğunu nəzərə alarsaq, bu sahənin davamlı tərəqqi etməsi üçün, aidiyyəti dövlət qurumları ilə mütəmadi qarşılıqlı sıx əməkdaşlıq edilməsi və təcrübə mübadiləsi aparmaqla təmsilçiliyin mövcud vəziyyətinin dəyərləndirilməsinin, sektorun sürətli inkişafında müstəsna rolunun olacağını düşünürəm.

Ölkə Prezidenti, tərəfindən 18 yanvar 2018-ci ildə imzalanan "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamından irəli gələn vəzifələrin icrasına dəstək olaraq, fəaliyyət sahəmizin birbaşa gömrük əməliyyatlarına aid olduğundan, təşəbbüskarı olduğumuz "2019- İXRACA DƏSTƏK" layihəsini həyata keçiririk.

Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması və həcminin artırılması, yerli istehsalçıları ixrac gömrük əməliyyatları ilə bağlı maarifləndirmək, ixrac gömrük rəsmiləşdirilməsini sürətləndirmək, yerli malların xarici bazarlara çıxarılması imkanlarını artırmaq istiqamətində də xidmət etməyi qarşımıza başlıca məqsəd qoymuşuq. Yerli istehsalçı sahibkarların layihəyə olan marağı və davamı olaraq növbəti maarifləndirici təlimlərin də uğurla yekunlaşacağı qənaətindəyik.

İxracla bağlı bunu da qeyd edim ki, həyata keçirdiyimiz "2019-İXRACA DƏSTƏK" layihəsi çərçivəsində qeyri-neft sektoru yerli istehsalımızın xarici bazarlara çıxarılmasında elektron ixracın əsaslı tətbiq edilməsinin vacibliyi tərəfimizdən müşahidə edilmişdir ki, bu sahədə də müvafiq işlər görməkdəyik.

İqtisadi inkişafımıza müsbət təsiri olacaq elektron ticarət və elektron ixracat ilə bağlı dünyada baş verən yeniliklərin, yeni trendlərin yerli sahibkarlara çatdırılması və onların öz sahələrində elektron ticarət tətbiqlərindən geniş istifadə etməsi üçün də maarifləndirici fəaliyyət göstərəcəyik. Elektron ticarətin inkişaf etməsi və ümumi ticarət dövriyyəsində xüsusi çəkisinin artması bu sahədə aparılacaq maarifləndirmə işlərindən asılı olacağı qənaətindəyik.

"My Broker" gömrük təmsilçiliyi olaraq, dünyada bu sahədə olan yeniliklərin və tətbiqlərin Azərbaycanda tanıdılması, tətbiq edilməsi üçün qonşu Türkiyə dövlətinin sahib olduğu istehsal gücü və tutumunun beynəlxalq arenada inkişafına elektron ixracat ilə əsaslı qatqı qatan "WORLDEF" təşkilatının Azərbaycan üzrə rəsmi ölkə təmsilçiliyini alaraq, iqtisadi inkişafımıza müsbət təsiri olacaq elektron ticarət və əsasən elektron ixrac ilə bağlı maarifləndirici işlər, beynəlxalq forumlar, təlimlər, seminarlar, online master təlimlər təşkil edəcəyik.

Noyabrın 26 və 27-si tarixlərində Bakı Boulevard Hotelində təşəbbüskarı olduğumuz "WORLD E-COMMERCE EURASİA 2019" beynəlxalq forum keçiriləcək. Ölkəmizdə elektron ticarətin, əsasən də elektron ixracın inkişafı üçün biznes subyektlərinə bu sahədə dünyada olan müasir təcrübənin, son trendlərin, sistemli inteqrasiyanın, qanunvericilik təcrübəsinin, ödəniş üsullarının və bu sahədə olan son tətbiqlərin müzakirələri aparılacaq. Forumun ikinci günündə e-ticarət sahəsinin maraqlı tərəfləri vergi, gömrük, maliyyə bazarları və ixrac sahəsində müvafiq dövlət qurumlarının, eləcə də bank, ödəniş platformalarının, mikro, kiçik və orta sahibkarları, eləcə də e-ticarətlə məşğul olan sahibkarların və bu sahədən olan xarici peşəkar mütəxəssislərin iştirakı ilə yarımgünlük müzakirələr aparılaraq sahələr üzrə hesabatlar hazırlanacaqdır.

Elektron ticarət sahəsində də maarifləndirmə işləri və dövlət dəstəyi nəticəsində elektron ticarət sektorumuz da inkişaf edəcək və ölkəmiz bu sahədədə regionun liderinə çevriləcəkdir. Elektron ticarət mühitinin tam dəyişməsini nəzərə alsaq, elektron ticarətlə bağlı qanunvericiliyimizin yenidən işlənilməsi, müəyyən güzəştlər tətbiq edilməsi məqsədəuyğun olardı. Qonşu dövlət Türkiyənin qanunvericiliyində qəbul olunmuş elektron ixrac ilə bağlı Elektron Ticarət Gömrük Bəyannaməsini (ETGB) ölkəmizdə də tətbiq etməklə, elektron ixracın sürətli inkişafda müstəsna rol oynayacağı düşüncəsindəyəm.

Türkiyə dövləti ilk olaraq elektron ixrac üzrə ETGB tətbiq etməklə elektron ixrac olunacaq mallara dair çəki üzrə güzəşt limiti 150 kiloqram və dəyər üzrə güzəşt limitini isə 7 min 500 EUR qəbul etmişdir. Daha sonra 29 iyun 2019-cu il tarixində yenidən qanunvericilikdə dəyişiklik edərək limiti artırmış, çəki üzrə güzəşt limitini 300 kiloqram və dəyər üzrə güzəşt limitini isə 15 min EUR-a qaldırmışdır. Bu modelin ölkəmizdə istifadəsi üçün elektron ticarət haqqında qanuna dəyişikliklər etməklə elektron ixrac olunan mallara yeni Elektron Ticarət Gömrük Bəyannaməsi tətbiq edə bilərik. İlk olaraq ETGB tətbiqi üzrə



elektron ixrac zamanı çəki güzəşt limitinin 150 kiloqram və malın dəyəri üzrə güzəşt limitinin 7 min 500 USD müəyyən edilməsi Azərbaycanda elektron ixracın sürətli inkişafında əsas amil olar.

"My Broker" gömrük təmsilçiliyi olaraq sahəmiz üzrə üzərimizə düşən məsuliyyətin böyüklüyünü dərindən anlayaraq, ölkəmizdə həyata keçirilən iqtisadi inkişafın şaxələndirilməsində qarşıya qoyulan böyük hədəflərə nail olmaq yolunda hər bir Azərbaycan vətəndaşı kimi, bu davamlı inkişafın təminində töhfəmizin olması üçün əzm göstərməyi özümüzə borc bilib, ixracın stimullaşdırılması və inkişafı işində biz də əməyimizdən qürur duyuruq.

**Rəşad ƏLİYEV,**
**"My Broker" şirkətinin təsisçisi.**